# «MƏDƏN SƏNAYESINDƏ ŞƏFFAFLIĞIN ARTIRILMASI» KOALSISYASI

| | |
|---|---|
| **Layihə:** | Azərbaycan ictimai birliklərinin «MƏDƏN SƏNAYESINDƏ ŞƏFFAFLIĞIN ARTIRILMASI» Koalisyasının 2007-cı ildə fəaliyyəti üçün imkanların yaradılması |
| **Maliyyə agenti olan təşkilat:** | İqtisadi və Siyasi Araşdırmalar Mərkəzi |
| **Maliyyə agenti olan təşkilat haqqında:** | |
| **Rəhbəri:** | Sabit Bağırov |
| **Ünvan:** | Bakı, Rəşid Behbudov küç., 3 |
| **Telefon: Faks:** | 498-12-66 |
| **E-mail:** | 493-14-38 |
| | bagirov.sabit@gmail.com |
| **Layihənin rəhbəri:** | Qubad İbadoğlu |
| **Layihənin müddəti:** | 10 ay (mart- dekabr 2007-cı il) |
| **Layihənin büdcəsi:** | $218.788 |
| **ACİ-YF-dan istənilən məbləğ:** | $138.788 |

## LAYİHƏNİN TƏSVİRİ

### 1. Müqəddimə:

Beynəlxalq "Mədən Sənayesində Şəffaflıq Təşəbbüsü"nün Azərbaycanda həyata keçirilməsində vətəndaş cəmiyyətini təmsil edən İctimai Birliklərin "Mədən Sənayesində Şəffaflığın Artırılması" Koalisiyası artıq 3-cü ildir ki, həmin "Təşəbbüs"ün prinsipləri və meyarları çərçivəsində öz Əsasnaməsində nəzərdə tutduğu məqsədlərə çatmaq üçün fəaliyyət göstərir. Xüsusilə keçən 2006-cı ildə Koalisiya ACİ YF, Dünya Bankı, Ebert Fondu, NOWIB Oxfam və Counterpart təşkilatlarının maliyyə dəstəyi ilə özünün 2006- 2007-ci illəri əhatə edən iki illik fəaliyyət planının birinci hissəsini uğurla həyata keçirib. Belə ki, bu müddətdə Koalisiya:

- Azərbaycan Hökumətinin gəlirlərlə bağlı açıqlanan hesabatlarını və bu hesabatları neft şirkətlərinin hesabatları ilə tutuşduran müvafiq audit şirkətlərinin rəylərini qiymətləndirib və öz rəylərini ictimaiyyətə açıqlayıb;
- audit şirkətinin seçimində digər maraqlı tərəflərlə bərabər zəmində iştirak edib;
- Bakıda 3 günlük beynəlxalq konfransın təşkilatçısı olub (6- 8 aprel);
- vətəndaş cəmiyyəti nümayəndələrinin, tələbələrin, regionlarda yerli özünü idarəetmə orqanları nümayəndələrinin və vətəndaşların məlumatlılığının artırılması məqsədilə 4, KİV-lərlə bağlı, ARDNŞ-də müasir idaretmənin tətbiqinin yubanmasının səbəblərinin araşdırılması, neft şirkətləri, dövlət strukturları, media, QHT və müstəqil ekspertlər arasında sorğu keçirilməsi, TV-də tok- şouların, radioda isə radio- dialoqların təşkili və s. ilə bağlı müxtəlif layihələr həyata keçirib;

- 1 ay davam edən ictimai təbliğat kampaniyası çərçivəsində 9 layihə həyata keçirilib və Bakıda geniş konfrans təşkil edilib;
- Müxtəlif çap məhsulları hazırlayıb və yayıb;
- istər yerli, istər regional, istərsə də beynəlxalq tərəfdaşları ilə yaxşı əlaqələr qurub və əməkdaşlıq edib.

Koalisiya bu istiqamətdə fəaliyyətini 2007-ci ildə də davam etdirməyi planlaşdırıb. Bu fəaliyyətin vacibliyini şərtləndirən amillər bunlardır:

- böyük gəlirlərin idarə edilməsində hökumət təcrübəsinin azlığı;
- neft gəlirlərindən müxtəlif məqsədlər (büdcə, sosial obyektlərin tikintisi və s. xərclər) üçün getdikcə daha çox və iri həcmlərdə istifadə edilməsi
- qanunverici və məhkəmə hakimiyyətinin icra hakimiyyətindən asılılığı;
- ölkədə korrupsiyanın yüksək səviyyəsi;
- müstəqil KİV-lərin zəifliyi;
- neft gəlirlərinin daxil olması, saxlanılması və xərclənməsi ilə bağlı əhalinin məlumatsızlığı;
- ARDNŞ-nin idarə edilməsi və hesabatlılığında müasir standartlara uyğunsuzluq
- ARDNŞ və HBPS arasında maraqlar konflikti;
- ilkin olaraq nəzərdə tutulduğuna nisbətən əsas podrat xərclərinin xeyli dərəcədə artması.

Bu amillər neft gəlirlərinin qismən səmərəsiz istifadəsi risklərini də artırır. Həmin riskləri azaltmaq məqsədilə Koalisiya 2007-ci ildə öz fəaliyyətini aşağıdakı əsas prioritetlər sahəsində qurmaq əzmindədir:

1. *Yerli və xarici neft şirkətlərinin fəaliyyətində şəffaflığın artırılması;*
2. *Neft Fondundan maliyələşən layihələrin monitorinqi və bunların səmərəliliyinin təhlili;*
3. *Neft gəlirlərinin şəffaflığı ilə bağlı informasiyanın ictimailəşməsi və maarifçilik. Koalisiya və vətəndaş cəmiyyəti qurumları ilə əməkdaşlığın gücləndirilməs;i*
4. *MHŞT dair Memorandumu üzrə Koalisiyanın üzərinə düşən vəzifələrin icrası. Özünün institusional imkanlarının, bilik və bacarığın artırılması;*
5. *Beynəlxalq və regional əməkdaşlıq;*

Bu prioritet sahələr öz əksini Koalisiyanın "**2007 – Cİ İL ÜÇÜN PROQRAM SƏNƏD**"ində tapmışdır. Həmin sənəd (əlavə edilir) Koalisiyanın 22 dekabr 2006-cı il tarixli Ümumi Yığıncağında təsdiq edilmişdir. Sənəddə nəzərdə tutulan fəaliyyət növlərinin bir qismi institusional xarakter daşıyır və bu layihədə təsvir edilmişdir.

## 2. Layihənin məqsədi

Layihənin həyata keçirilməsində məqsəd Koalisiyanın öz fəaliyyətini davam etdirməsi və "**2007 – Cİ İL ÜÇÜN PROQRAM SƏNƏD**"ində nəzərdə tutduğu proqram, monitorinq, vəkillik və instutsional fəaliyyət növlərini həyata keçirmək, bunun üçün zəruri iş şəraiti ilə təmin edilmiş ofisinin işini təmin etmək, Koalisiyanın ümumi yığıncaq və mətbuat konfranslarını, onun Şurasının və işçi qruplarının iclaslarını, müxtəlif dəyirmi masalar, treninqlər və görüşləri təşkil etmək, Koalisiya jurnalının nəşrlərini hazırlamaq, həmçinin adı çəkilən Sənəddə nəzərdə tutulmuş bir sıra digər fəaliyyətləri həyata keçirməkdir.

## 3. Görüləcək işlər

**Layihə üzrə görüləcək işlər 4 blokda qruplaşdırılıb: proqram, vəkillik, monitorinq və institusional. Bu faəliyyətlər üzrə aşağıdaki işlərin görülməsi planlaşdırılır:**

1) Koalisiyanın 2 Ümumi yığıncağı keçiriləcək;
2) Koalisiyanın 2 mətbuat konfransı keçiriləcək;
3) Koalisiya Şurası və işçi qrupların 30 iclası keçiriləcək;
4) Koalisiyanın dəyirmi masaları, seminarları, konfransları (cəmi 34) keşiriləcək;
5) Koalisyanın Gəncədə regional konfransi təşkil olunacaq;
6) Neft gəlirlərinin şəffaflığı mövzusunda 3 tok- şou təşkil olunacaq;
7) "Təşəbbüs" üzrə açıqlanan hesabatlar və audit rəyləri təhlil ediləcək, bunlarla bağlı Koalisiyanın rəyi hazırlanacaq və açıqlanacaq;
8) Qeyri neft və qaz təbii ehtiyyatlarının "Təşəbbüs"lə əhatə edilməsi məqsədilə müvafiq təklif hazırlanacaq, bu məsələnin ictimai müzakirəsi keçiriləcək və Memorandum tərəflərilə iş aparılacaq;
9) Koalisiya vebsaytının bütün dövr ərzində işi iki dildə (Azərbaycan və ingilis) təmin ediləcək;
10) Koalisiyanın rüblük jurnalı nəşr ediləcək;
11) Gənclərin və qadınların MHŞT proseslərinə cəlb edilməsinə çalışılacaq. 3 ən iri gənclər təşkilatında neft gəlirləri və onların səmərəli istifadəsinə həsr edilmiş dəyirmi masalar keçiriləcək. İştirakçılara materiallar paylanacaq. "Neft gəlirlərinin səmərəli istifadəsi" adlı gənclər və qadınlar təşkilatlarının məsləhət şurasının yaradılması və işinin qurulması üçün konfrans keçiriləcək;
12) Beynəlxalq əlaqələr (MHŞT Katibliyi, PWYP Koalisiyası, Regional Qrup, digər beynəlxalq qurumlar) davam etdiriləcək;
13) Mədən sənayesində fəaliyyət göstərən şirkətlərin müasir şəffaflıq tələblərinə uyğunluğunun təhlil ediləcək və şəffaflığın artırılması məqsədilə Koalisiya siyasətinə dair müvafiq Siyasət Yazıları hazırlanacaq və açıqlanacaq;
14) Neft Fondunun idarəçiliyində olan maliyyə vəsaitlərinin yerləşdirilməsi, investisiyalara yönəldilməsi siyasəti izlənəcək, təhlil ediləcək və müvafiq illik hesabat hazırlanacaq;
15) ARDNŞ maliyyə kanalları izlənəcək, təhlil və qiymətləndirilməsinə dair müvafiq illik hesabat hazırlanacaq;
16) Mədən sənayesində şəffaflığın artırılması və gəlirlərin səmərəli idarə edilməsi məqsədilə "Neft gəlirlərinin idarə edilməsi haqqında" qanun layihəsi və aidiyatı olan mövcud qanunvericilik aktlarının təkmilləşdirilməsinə dair müvafiq təkliflər hazırlanacaq;
17) Koalisiyanin mərkəzi və regional ofislərində lazımi iş şəraiti yaradılacaq və onların icarə, rabitə, dəftərxana, kommunal xərclərinin və mərkəzi ofisin 5, regional ofisinin 1 nəfərdən ibarət işçi heyətlərinin əmək haqlarının ödənilməsi təmin ediləcək;
18) Koalisiyanın mətbuat xidməti təşkil olunacaq;
19) Monitorinq qrupunun layihələrin qiymətləndirilməsi üzrə işi təşkil olunacaq.

## 4. Qiymətləndirmə

Layihənin həyata keçirilməsinə Koalisiya Ümumi yığıncağında seçilmiş Şura və Monitorinq Qrupu nəzarət edəcək və onu qiymətləndirəcək. Şura və Monitorinq Qrupu layihənin daha səmərəli həyata keçirilməsi üçün təklif və tövsiyələrini verəcək. Layihənin gedişi və nəticələri haqqında məlumat (ümumi, həyata keçirilməsi və nəticə) Koalisiya vebsaytında yerləşdiriləcək.

## 5. Təqvim planı:

| | Fəaliyyət növü | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1. | Koalisiyanın Ümumi yığıncaqlarının keçirilməsi | | | | | | | | | | |
| 2. | Mətbuat konfranslarının keçirilməsi | | | | | | | | | | |
| 3. | Şura və işçi qrupların iclaslarının keçirilməsi | | | | | | | | | | |
| 4. | MSŞT hesabatları üzrə fəaliyyət, o cümlədən<br>- Audit şirkətinin seçimində iştirak<br>- Koalisiya rəyinin hazırlanması və ictimai müzakirənin təşkili | | | | | | | | | | |
| 5. | Monitorinq Qrupu fəaliyyətinin təşkili | | | | | | | | | | |
| 6. | Qeyri neft və qaz təbii ehtiyyatlarının “Təşəbbüs”lə əhatə edilməsi məqsədilə müvafiq təklif hazırlanacaq, bu məsələnin ictimai müzakirəsi keçiriləcək və Memorandum tərəflərilə iş aparılacaq | | | | | | | | | | |
| 7. | Vebsaytın işinin təmin edilməsi və zənginləşdirilməsi | | | | | | | | | | |
| 8. | Koalisiya jurnalının nəşri | | | | | | | | | | |
| 9. | Gənclərin MHŞT proseslərinə cəlb edilməsi | | | | | | | | | | |
| 10. | Beynəlxalq əlaqələr davam etdiriləcək | | | | | | | | | | |
| 11. | Mədən sənayesində fəaliyyət göstərən şirkətlərin müasir şəffaflıq tələblərinə uyğunluğunun təhlil edilməsi və şəffaflığın artırılması məqsədilə Koalisiya siyasətinə dair müvafiq Siyasət Yazısının hazırlanması və açıqlanması | | | | | | | | | | |
| 12. | Neft Fondunun idarəsində olan maliyyə vəsaitlərinin yerləşdirilməsi, investisiyalara yönəldilməsi siyasətinin izlənməsi, təhlil edilməsi və müvafiq illik hesabatın hazırlanması | | | | | | | | | | |
| 13. | Neft gəlirlərinin qismən itirilməsi risklərinin qiymətləndirilməsi və onların azadılmasına dair təkliflərin hazırlanması | | | | | | | | | | |
| 14. | Mədən sənayesində şəffaflığın artırılması və gəlirlərin səmərəli idarə edilməsi məqsədilə “Neft gəlirlərinin idarə edilməsi haqqında” qanun layihəsinin və aidiyatı olan mövcud qanunvericilik aktlarının təkmilləşdirilməsinə dair müvafiq təkliflərin hazırlanması | | | | | | | | | | |
| 15. | Koalisiya ofisində lazımi iş şəraiti yaradılacaq və onun icarə, rabitə, dəftərxana, kommunal xərclərinin və 5 nəfərdən ibarət işçi heyətin əmək haqlarının ödənilməsi təmin ediləcək | | | | | | | | | | |
| 16. | Regional ofisdə lazımi iş şəraiti yaradılacaq və onun icarə, rabitə, dəftərxana, kommunal | | | | | | | | | | |

| | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | xərclərinin və 1 nəfər işçiyə əmək haqqı ödənilməsi təmin ediləcək | | | | | | | | | | |
| 17. | Regional konfransa hazırlıq və keçirilməsi | | | | | | | | | | |
| 18. | Neftlə çirklənmiş sahələrə yaxin ərazilərdə yaşayan əhalinin təlimatlandırılması və aidiyyatı orqanların məlumatlandırılmasi üçün monitorinqin keçirilməsi | | | | | | | | | | |
| 19. | Mədən sənayesi şirkətlərinin fəaliyyətlərinin beynəlxalq ekoloji standartlara uyğunluğunun qiymətləndirilməsi və mövcud standartlara uyğunlaşdırılmasına dair müvafiq təkliflərin hazırlanması | | | | | | | | | | |
| 20. | Vətəndaşların məlumatlılığı və neft gəlirlərinin səmərəli istifadəsinə maraqlarının artırılması kampaniyalarının keçirilməsi: | | | | | | | | | | |
| 21. | TV -də Tok Şouların təşkili | | | | | | | | | | |
| 22. | Mətbuat xidmətinin işi | | | | | | | | | | |
| 23. | Gənclərin MHŞT proseslərinə cəlb edilməsi işi | | | | | | | | | | |
| 24. | Qadınların MHŞT proseslərinə cəlb edilməsi işi | | | | | | | | | | |
| 25. | Orta məktəblərdə maarifləndirmı işi | | | | | | | | | | |

## 6. İcraçıların müəyyənləşdirilməsi prinsipləri

Koalisiya Şurasının 02 fevral 2007-ci il tarixli qərarına uyğun olaraq:

a) bu vahid layihənin ayrı- ayrı istiqamətləri üzrə təqdim ediləcək təkliflər arasından ən yaxşılarını təyin etmək üçün müsabiqələr keçiriləcək;
b) Müsabiqələri elan etmək və keçirmək üçün Seçim Qrupu yaradılacaq;
c) Seçim Qrupunun tərkibi Şura üzvlərindən təşkil ediləcək;
d) İddiaçı Şura üzvünün təqdim etdiyi layihə ilə bağlı keçirilən səsvermədə səs vermək hüququ olmayacaq.

## 7. Büdcə

| Xərclərin istiqaməti | ACİ-YF | Dünya Bankı | Digər donorlar |
|---|---|---|---|
| **Proqram fəaliyyəti** | | | |
| **1. Strateji Planın reallaşdırılması üzrə ictimai müzakirələrin keçirilməsi (7 x $600)**<br>1.1. Şirkətlərin MHŞT çərçivəsində fərdi hesabatlılığı<br>1.2. Şirkətlərin vergi və digər ödənişləri barədə informasiya açıqlığı<br>1.3. Qeyri-neft/qaz hasilat sənayesində şəffaflıq təşəbbüslərinin genişləndirilməsi<br>1.4. Mədən sənayesi şirkətlərinin fəaliyyətlərinin beynəlxalq ekoloji standartlara uyğynlaşdırılması<br>1.5. Neft Fondunun xərcləri ilə bağlı məlumatlılığın artırılması məqsədilə tətbiqi büdcə təhlili<br>1.6. Neft gəlirləri və gender problemləri<br>1.7. ARDNŞ-nin uçot və hesabat sisteminin beynəlxalq standartlara keçirilməsinin şəffafliğa təsirinin qiymətləndirilməsi | **$4200** | | |
| **2. Mətbuat konfranslarının təşkili (2 x 150)**<br>2.1. Yarım ilin yekunlarına həsr olunacaq<br>2.2. İlin yekunlarına həsr olunacaq | **$300** | | |
| **3. Regional konfransin təşkili**<br>3.1. təşkilati xərclər<br>3.2. Ezamiyyə xərcləri | **$2500** | | |
| **4. MHŞT hesabatları (ildə 2 dəfə) üzrə təhlillərin aparılması və açıqlamaların keçirilməsi**<br>• təhlil aparan və rəy hazırlayan mütəxəssislərin qonorarı (2 x $1000 = $2000) | **$2000** | | |
| **5. Mədən sənayesində fəaliyyət göstərən şirkətlərin müasir şəffaflıq tələblərinə uyğunluğunun təhlil edilməsi və şəffaflığın artırılması məqsədilə Koalisiya siyasətinə dair müvafiq Siyasət Yazısının hazırlanması və açıqlanması** | **$3000** | | |

| | | | |
|---|---|---|---|
| - təhlil aparan və təklif hazırlayan mütəxəssislərin qonorarı (6 x $500 = $3000) | | | |
| **6. Neft Fondunun idarəçiliyində olan maliyyə vəsaitlərinin yerləşdirilməsi, investisiyalara yönəldilməsi siyasətinin izlənməsi, təhlil edilməsi və hesabatın hazırlanması**<br>- işin rəhbəri (6 x $200 = $1200)<br>- SMF-na ödənişlər ($1200 x 0.22 = $264)<br>- məsləhətçilərin qonorarı ($1000)<br>- ləvazimat (6 ay x $20 = $120)<br>- rabitə, internet (6 ay x $20 = $120)<br>- dəyirmi masalaın keçirilməsi (2 x $300 = $600)<br>- Tövsiyyələr Paketinin yekun təqdimat – $300 | **$3604** | | |
| **7. ARDNŞ-nin maliyyə axinlarının izlənilməsi, təhlili və onun şəffaflığının qiymətləndirilməsi**<br>işin rəhbəri (8 x $200 = $1600)<br>- SMF-na ödənişlər ($1600 x 0.22 = $352)<br>- məsləhətçilərin qonorarı ($1000)<br>- ləvazimat (8 ay x $20 = $160)<br>- dəyirmi masalaın keçirilməsi (2 x $300 = $600)<br>- rabitə, internet (8 ay x $20 = $160)<br>- tövsiyyələr Paketinin yekun təqdimat - $300 | **$4172** | | |
| **8. Mədən sənayesində şəffaflığın artırılması və gəlirlərin səmərəli idarə edilməsi məqsədilə "Neft gəlirlərinin idarə edilməsi haqqında" qanun layihəsinin və aidiyatı olan mövcud qanunvericilik aktlarının təkmilləşdirilməsinə dair müvafiq təkliflərin hazırlanması**<br>- işin rəhbəri (6 x $200 = $1200)<br>- SMF-na ödənişlər ($1200 x 0.22 = $264)<br>- məsləhətçilərin qonorarı ($1000)<br>- ləvazimat (6 ay x $20 = $120)<br>- dəyirmi masalaın keçirilməsi (2 x $300 = $600)<br>- rabitə, internet (6 ay x $20 = $120)<br>- Tövsiyyələr Paketinin yekun təqdimat – $300 | **$3604** | | |
| **9. Mədən sənayesi şirkətlərinin fəaliyyətlərinin beynəlxalq ekoloji standartlara uyğunluğunun qiymətləndirilməsi və mövcud standartlara uyğunlaşdırılmasına dair müvafiq təkliflərin hazırlanması**<br>- işin rəhbəri (6 x $200 = $1200)<br>- SMF-na ödənişlər ($1200 x 0.22 = $264)<br>- məsləhətçilərin qonorarı ($1000)<br>- ləvazimat (6ay x $20 = $120)<br>- dəyirmi masalaın keçirilməsi (2 x $300 = $600)<br>- rabitə, internet (6ay x $20 = $120)<br>- Tövsiyyələr Paketinin yekun təqdimat -$300 | **$3604** | | |
| **Proqram fəaliyyətinin cəmi** | **26.984** | | |

| | | | |
|---|---|---|---|
| Monitorinq fəaliyyəti | | | |
| **10. Neftlə çirklənmiş sahələrə yaxin ərazilərdə yaşayan əhalinin təlimatlandırılması və aidiyyatı orqanların məlumatlandırılmasi üçün monitorinqin keçirilməsi**<br>- işin rəhbəri (6 x $200 = $1200)<br>- SMF-na ödənişlər ($1200 x 0.22 = $264)<br>- monitorinq qrupunun qonorarı - $2000<br>- ləvazimat (6 ay x $20 = $120)<br>- dəyirmi masalaın keçirilməsi (3 x $300 = $900)<br>- rabitə, internet (6 ay x $20 = $120)<br>- nəqliyyat xərcləri - $150<br>- Tövsiyyələr Paketinin yekun təqdimat -$300 | $5064 | | |
| **11. Neft Fondundan maliyyələşən layihələrin monitorinqi**<br>- Oguz-Qəbələdən Bakiya çəkilən su kəməri layihəsinin monitorinqi | | | $40.000 |
| **Monitorinq fəaliyyətinin cəmi** | $5.064 | | $40.000 |
| Vəkillik fəaliyyəti | | | |
| **12. Vətəndaşların məlumatlılığı və neft gəlirlərinin səmərəli istifadəsinə maraqlarının artırılması kampaniyalarının keçirilməsi**:<br>- Rayon mərkəzlərində aşağıdakı mövzularda diskussiyaların keçirilməsi: Azərbaycan neft sazişləri; Beynəlxalq şəffaflıq təşəbbüsləri; MHŞT. Dəyirmi masalarda Koalisiyanın ekspertləri məruzə edəcək və suallara cavab verəcəklər. İştirakçılara materiallar paylanacaq;<br>- Bakı və region universitetlərində neft gəlirləri və onların səmərəli istifadəsinə həsr edilmiş dəyirmi masaların keçirilməsi. Dəyirmi masalarda Koalisiyanın ekspertləri məruzə edəcək və suallara cavab verəcəklər. İştirakçılara materiallar paylanacaq;<br>- 2005-ci ildə Açıq Cəmiyyət İnstitutunun keçirdiyi müsabiqədə qalib gəlmiş iki neft gəlirləri haqqında filmin region TV-lərdə nümyiş etdirilməsi;<br>- 2006-cı ildə Koalisiya və İnternews tərəfindən istehsal edilmiş iki neft gəlirləri haqqında reklam çarxlarının İctimai Televiziyada il boyu nümayiş etdirilməsi;<br>- Radioda dialoqların keçirilməsi. Bu dialoqlara Koalisiyanın ekspertləri və hökumət nümayəndələri dəvət olunacaqlar;<br>- Mərkəzi və region qəzetlərində mediaforumların təşkili | | $12000<br>$7000<br>$5000<br>$2000<br>$5000<br>$2000 | |
| **13. TV -də Tok Şouların təşkili**<br>- məsul şəxsin maaşı (3 x $200 = $600)<br>- SMF-na ödənişlər ($600 x 0.22 = $132)<br>- rabitə (3 ay x $30 = $90)<br>- efir vaxtının ödənişi - 3 x $1800 = $5400 | $6222 | | |
| **14. Memorandum tərəfləri ilə onun təkmilləşdiirlməsi məqsədilə müzakirələrin təşkili və hesabatlılığın artirilması**<br>*14.1. Hökumət komissiyasi ilə iş* | $2376 | | |

| | | | |
|---|---|---|---|
| - məsul şəxsin maaşı (9 x $200 = $1800)<br>- SMF-na ödənişlər ($1800 x 0.22 = $396)<br>- rabitə, internet (9 ay x $20 = $180)<br><br>*14.2. Şirkətlərlə iş*<br>- məsul şəxsin maaşı (9 x $200 = $1800)<br>- SMF-na ödənişlər ($1800 x 0.22 = $396)<br>- rabitə, internet (9 ay x $20 = $180) | <br><br><br><br>$2376 | | |
| **15. Beynəlxalq əlaqələrin təşkili**<br>- məsul şəxsin maaşı (9 x $200 = $1800)<br>- SMF-na ödənişlər ($1800 x 0.22 = $396)<br>- rabitə, internet (9 ay x $20 = $180) | $2376 | | |
| **16. Mətbuat xidmətinin işi**<br>- məsul şəxsin maaşı (9 x $200 = $1800)<br>- SMF-na ödənişlər ($1800 x 0.22 = $396)<br>- ləvazimat (9 ay x $20 = $180)<br>- rabitə, internet (9 ay x $30 = $270)<br>- qəzetlərə abunə yazılışı (9 ay x100= $900)<br>- Dəyirmi Masaların təşkili – (4 x $250) = $1000 | $4546 | | |
| **17. Gənclərin MHŞT proseslərinə cəlb edilməsi**<br>- işin rəhbəri (9 ay x $200 = $1800)<br>- SMF-na ödənişlər ($1800 x 0.22 = $396)<br>- dəyirmi masalaın keçirilməsi (3 x $300 = $900)<br>- ləvazimat (9 ay x $20 = $180)<br>- Seminarların keçirilməsi- $500<br>- rabitə, internet (9 ay x $20 = $180)<br>- səfər xərcləri – $1000<br>- Konfransın keçirilməsi – $1000 | $5956 | | |
| **18. Qadınların MHŞT proseslərinə cəlb edilməsi**<br>- işin rəhbəri (9 ay x $200 = $1800)<br>- SMF-na ödənişlər ($1800 x 0.22 = $396)<br>- dəyirmi masalaın keçirilməsi (3 x $300 = $900)<br>- ləvazimat (9 ay x $30 = $270)<br>- Seminarların keçirilməsi- $500<br>- rabitə, internet (9 ay x $30 = $270)<br>- səfər xərcləri – $1000<br>- Konfransın keçirilməsi – $1000 | $5956 | | |
| **19. 10 orta məktəbdə maarifləndirmı işi**<br>- işin rəhbəri (9 ay x $200 = $1800)<br>- SMF-na ödənişlər ($1800 x 0.22 = $396)<br>- ləvazimat ( 9 ay x $20 = $180)<br>- Seminarların keçirilməsi- $1500<br>- rabitə, internet ( 9 ay x $20 = $180)<br>- Konfransın keçirilməsi – $1000 | $5056 | | |

| | | | |
|---|---|---|---|
| | | | |
| Vəkillik fəaliyyətinin cəmi | $34.864 | | $33.000 |
| İnstitusional fəaliyyət | | | |
| 20. Koalisiya ofisində lazımi iş şəraiti yaradılacaq və onun icarə, rabitə, dəftərxana, kommunal xərclərinin və 5 nəfərdən ibarət işçi heyətin əmək haqlarının ödənilməsi təmin ediləcək<br>- layihə rəhbəri – koalisiya koordinatorunun maaşı (10 x $300 = $3000)<br>- ofis meneceri (10 x $400 = $4000)<br>- asistent (10 x $200 = $2000)<br>- tərcüməçi (10 x $200 = $2000)<br>- maliyyə meneceri və mühasib (10 x $250 = $2500)<br>- SMF-na ödənişlər ($13500 x 0.22 = $2970)<br>- ofisin icarəsi (10 x $900 = $9000)<br>- ödəmə mənbəyindən vergi – $9000 x 14%= $1260<br>- kommunal xərclər- (10 x $70 = $700)<br>- İnternet (10 x 100$ = $1000)<br>- kitabxananin formalaşdırılması üçün metodiki vəsaitlər- $1000<br>- dəftərxana ləvazimatı və kartric (10 x $100 = $1000)<br>- ofis ücün kompyuter (3 x $600) = $1800<br>- veb operator üçün kompyuter (1 x $900) = $900<br>- Şura iclaslarının keçirilməsi xərcləri (30 iclas x $15 = $450)<br>- kompyuter dəsti ücün stol və stul (4 x $200) = $800<br>- kitab şkafları- (2 x $200) = $400<br>- sürət çıxarma aparatı – $800<br>- videokamera – $ 1000<br>- Poçt xərci – $1000 | $37580 | $7000 | |
| 21. Koalisiyanın Ümumi yığıncaqlarının keçirilməsi (2 x $1500) | $3000 | | |
| 22. Regional təşkilatlara institutsional yardim<br><br>- ofis meneceri- (10 x $200 = $2000)<br>- SMF-na ödənişlər ($2000 x 0.22 = $440)<br>- Gəncə ofisinin icarəsi (10 x $100 = $1000)<br>- Ödəmə mənbəyindən vergi ($1000 x 14%)= $140<br>- komunal xərclər (10 x 30$ = $300)<br>- rabitə və İnternet (10 x 50$ = $500)<br>- dəftərxana ləvazimatı və kartric (10 x $40 = $400)<br>- Regional koordinatorun ezamiyyə xərcləri – $ 1200<br>- Region nümayəndələrinin Koalisiyanin iclaslarında iştirakı üçün ezamiyyət xərcləri (il ərzində 7 nəfər x $50 x 2 = $700) | $6680 | | |
| 23. Vebsaytın işinin təmin edilməsi və zənginləşdirilməsi<br>- Veb usta, jurnalın və bülletenin dizayneri (10 x $300 = $3000)<br>- SMF-na ödənişlər ($3000 x 0.22 = $660) | $3660 | | |

| | | | |
|---|---|---|---|
| **24. Koalisiya bülleteninin nəşri**<br><br>- redaktorun maaşı (10 x $200 = $2000)<br>- assistent (10 x $150 = $1500)<br>- SMF-na ödənişlər ($3500 x 0.22 =770 $)<br>- Rabitə xərcləri (10 x $20 = $200)<br>- dəftərxana ləvazimatı (10 x $20 = $200)<br>- nəşriyyat xərcləri ($0,8 x 10 x 300 = $2400) | $7070 | | |
| **25. Koalisiya jurnalının nəşri**<br><br>- redaktorun maaşı (9 x $200 = $1800)<br>- korrektor (4 x $100 = $400)<br>- SMF-na ödənişlər ($2200 x 0.22 =484 $)<br>- Rabitə xərcləri (9 x $20 = $180)<br>- dəftərxana ləvazimatı (9 x $20 = $180)<br>- müəllif qonorarı (4 x $500 = $2000)<br>- nəşriyyat xərcləri ($1.25 x 4 x 300 = $1500) | $6544 | | |
| **26. Monitoring Qrupunun fəaliyyətinin təşkili (daxili audit)**<br><br>- qrupa novbəli sədrlik edənlərin maaşi (10 x $300 = $3000)<br>- SMF-na ödənişlər ($2000 x 0.22 = $440)<br>- ləvazimat (10 ay x $20 = $200)<br>- rabitə, internet (10 ay x $20 = $200)<br>- ezamiyyə xərcləri – $500<br>- layihələrin qiymetləndirməsi və hesabatlarin hazırlanması xərcləri – hər layihə üçün $200 (15 x $200) =$3000 | $7340 | | |
| Cəmi: | $71.874 | $7.000 | |
| Yekunu: | $138.788 | $40.000 | $40.000 |